# Dünyanın ikili mövqeyi

## Və ya Gəncə, Bərdə terroruna susan dünya niyə Vyanadakı hadisəyə susmaq istəmədi?



**Avstriyanın paytaxtı Vyana şəhərində baş verən terror aktı dünyanın diqqətini Qarabağda Azərbaycanın apardığı azadlıq əməliyyatlarından bir anlığa olsa da ayırdı. İndiyə qədər rəsmi Vyananın "iyrənc terror hücumu" adlandırdığı hadisə ilə bağlı 14 nəfər saxlanıb. Bu hücum nəticəsində 5 nəfər həlak olub. Şübhəlilər Vyananın 6 müxtəlif yerində adamlara atəş açmışdı.**



Bu hücum nəticəsində 22 nəfərin yaralandığı xəbər verilir. Polis, şübhəlilərdən birini, 20 yaşlı Avstriya-Şimali Makedoniya vətəndaşlığı olan şəxsi atışma zamanı güllələyib. Onun bundan əvvəl də terror ittihamı ilə məhkumluğu olub. İki başqa şübhəlinin də Makedoniya əsilli olduqları bildirilir. Hücum edənin Şimali Makedoniya kökənli, lakin Avstriya doğumlu Kujtim Feyzulahi olduğu bildirilir. Avstriya kansleri Kurz ölkədə üç günlük matəm elan edərkən deyib: "Biz nifrətin ayaq almasına heç vaxt imkan verməyəcəyik. Biz agah olmalıyıq ki, bu, xristianlar və müsəlmanlar və ya avstriyalılarla miqrantlar arasında münaqişə deyil". Kansler daha sonra əlavə edib: "Bizim düşmənimiz islamçı terrordur və o yalnız ölüm və ağrı törətməyə çalışmır, həm də cəmiyyətimizi bölmək istəyir".

Kurz deyib ki, Avstriya özünün demokratiya və həyat tərzini bundan sonra da müdafiə edəcək.

### GƏNCƏ, BƏRDƏ VƏ VYANA - DİNC SAKİNLƏR HƏDƏFƏ ALINIR

Sözsüz ki, Vyanada baş verən hadisə birmənalı olaraq terrordur və pislənilməlidir. Bütün dünya da haqlı şəkildə Vyanada və bundan əvvəl Fransada yaşananları pislədi və bu ölkələrin rəhbərlərinə dəstək nümayiş etdirdilər. Rəsmi Bakı da ən yüksək səviyyədə bəyanatlar verərək Avstriyada törədilən terroru pisləyən bəyanatlar səsləndirib. Maraqlı olan başqa məsələdir. Bir aydan artıqdır ki, Azərbaycan işğal altında olan torpaqlarını azad etmək istiqamətində əməliyyatlar aparır, torpaqlarını azad edir. Qarşı tərəf uğursuzluqlarının qarşılığında nə edir? Cəbhə zonasından xeyli aralıda yerləşən şəhərləri, kəndləri hədəfə alır. Atəşkəs razılığından sonra Gəncədə və Bərdədə törədilən partlayışlar nəticəsində xeyli insan həlak oldu. Ən dəhşətlisi isə odur ki, erməni vandalları insanları gecə yatdıqları yerdə, eləcə də, vətəndaşların sıx məskunlaşdığı yerləri hədəfə alır. Bundan əlavə, sentyabrın 27-dən noyabrın 2-dək Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən tək Tərtər ərazisinə ümumilikdə 15 mindən artıq top mərmisi atıb, 17 nəfər ölüb, 54 nəfər yaralanıb. Beləliklə, Azərbaycan Ordusunun qarşısında məğlub vəziyyətə düşən işğalçı Ermənistan mülki əhaliyə atəş açmaqda davam edir. Düşmənin Gəncə və Bərdəyə raket atması da Ermənistanın bir dövlət kimi faşist mahiyyətindən qaynaqlanır. Raket atəşi nəticəsində infrastruktura ciddi ziyan dəyib, ölən və yaralananlar var.

Bu, Ermənistanın növbəti hərbi cinayətidir.

Beynəlxalq Humanitar Hüquq, bu hüququn əsas sənədləri olan 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara 1977 və 2005-ci illərdə əlavə edilmiş üç protokol, BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli qətnaməsi, eləcə də digər beynəlxalq konvensiyalar müharibə zamanı mülki əhaliyə hücumu qadağan edir. İşğalçı ölkə bütün beynəlxalq qanunları pozur. Müharibədə dinc əhaliyə qarşı hücum etməmək yazılmamış qanundur. Ermənistan təkcə beynəlxalq qanunları deyil, həm də bütün yazılmış və yazılmamış qaydaları, dəyərləri tapdalayır. Terror üzərində qurulmuş, qondarma tarixi belə yalnız terrordan ibarət olan bir dövlətin mülki əhaliyə qarşı terrora əl atması təəccüblü deyil.

### GƏNCƏ VƏ BƏRDƏYƏ SUS, VYANAYA DƏRHAL REAKSİYA VER...

Maraqlı odur ki, 30 ildən artıqdır, Azərbaycan terroru öz üzərində hiss edir. Yüz minlərlə insan öz ev-eşiyindən qovulub, minlərlə insan öldürülüb. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altında olan Azərbaycan torpaqlarını dərhal və qeydşərtsiz azad etmək barədə qətnamələri olmasına baxmayaraq, təcavüzkar dövlət mənfur işğalçılıq siyasətini davam etdirir. Bu haqsızlığa 30 ildir dözən rəsmi Bakı ümid edirdi ki, dünya birliyi danışıqlar yolu ilə bu haqsızlığı aradan qaldırmağa cəhd göstərəcək. Lakin gözləntilərin əksinə olaraq, vəziyyət 30 ildir ki, dəyişməz qalıb. 30 illik sükutu pozmağa başlayanda isə dünyadan təpkilər daxil olmağa başladı. İşğal altında olan torpaqları itirməklə barışa bilməyən erməni vandalları insanları yatan yerdə öldürmək kimi şərəfsiz bir addıma yol verdilər. Özü də bu qərarı atəşkəs sənədinin imzalanmasından cəmi bir neçə saat sonra verdilər. Nəticədə onlarla insan həlak oldu, xeyli maddi ziyan dəydi. Bəs buna dünyanın reaksiyası necə oldu? Yenə də 30 ildir ki, hökm sürən susqunluq və ikili mövqe. Təcavüzkarı pisləyən bəyanat səsləndirməyə yenə cürətləri çatmadı. Ardınca, günün-günorta çağı, insanların sıx olduğu Bərdə şəhərinin mərkəzi qadağan olunan silahlarla bombalandı. Ermənistanın məhz bu şəhərlərə raket atmalarının yalnız bir məqsədi var - mülki əhaliyə daha çox zərər vermək. Çünki istenilən atəş, yaxud raket atışı sıx yaşayan mülki əhalinin daha çox hədəfə tuş gəlməsi deməkdir. Bu, Ermənistanın hədəfinin mülki əhali olduğunu bir daha sübut edir. Siyasi səbəb isə odur ki, işğalçı ölkə məğlubiyyətdən xilas olmaq ümidi ilə hər cür vəhşiliyə əl atır. Eləcə də, Azərbaycanın mülki əhalisi arasında təşviş yaratmaq, beləliklə, daxildə müharibəyə etiraz formalaşdırmaq və Qarabağda məğlubiyyəti kompensasiya etməkdir. Əli hər yerdən üzülən və Ordumuzun qarşısında aciz vəziyyətə düşən Ermənistan faşist mahiyyətinə uyğun terror aktına əl atmaqla xilas olmaq istəyir. Amma anlamır ki, 30 ildir həsrətində olduğumuz qələbəni heç kim və heç nə əlimizdən ala bilməyəcək. Dünya birliyi və beynəlxalq hüquq təşkilatları anlamalıdırlar ki, terror hadisələrinə göz yummaqla, özlərinə də ciddi zərbə vurmuş olurlar. Ən böyük terror yuvalarından biri məhz işğal altında olan Azərbaycan torpaqlarıdır. İllər uzunudur ki, beynəlxalq hesabatlarda xüsusi vurğulanır ki, PKK və ASALA kimi terror təşkilatları Azərbaycanın Qarabağ bölgəsində təlim düşərgələri yaradıb və orada təlim keçirlər. Sonradan həmin terrorçular Türkiyə və digər ölkələrə göndərirlər. Dünya birliyi yenə də susmağa üstünlük verir. Və indi Fransa və Avstriyada aksiyalar başlayanda əl-ayağa düşür, bunları pisləyən bəyanatlar yaymağa çalışırlar.




### VYANA TERRORUNDA ASALA İZİ

Yeri gəlmişkən, Vyanadakı sinaqoqda və digər 6 fərqli nöqtədə həyata keçirilən terrordan sonra ermənilər dərhal həm Avropa, həm də digər ölkələrdə baş verən terrorlarda türk izi axtarmağa başladılar. Terrorçu Ermənistanın müdafiə nazirliyinin sözçüsü öz səhifəsində yazmışdı ki, baş nazir Nikol Paşinyan bu gün Avropalılara səssiz bir salam göndərdi. Bu salamın səsi sonra çıxacaq. Dünya bizim sürprizlərə hazır olmalıdı. Bu paylaşımdan sonra terror hadisəsinin ASALA tərəfindən törədilməsi gün işığı kimi aydın olur. Məlumdur ki, erməni terror dövlətinin Avropada mövcud olan bu terror təşkilatı birbaşa Fransa və digər müəyyən qurumlar tərəfindən maliyyələşir və təhdid mexanizmi funksiyasını daşıyır. Avstriyada törədilən terror aktında türk izlərini axtarmaq istəyən ermənilərin bu istəyi də puç oldu. Ən önəmlisi isə o idi ki, yaralı polis əməkdaşını xilas dən və xəstəxanaya aparan da məhz türklər olub.

### BEYNƏLXALQ ALƏM TƏCAVÜZKARIN HƏRƏKƏTLƏRİNƏ SON QOYMALIDIR

Təəssüf ki, 30 ildən bəri davam edən erməni qəddarlığı və iddiaları, ədalətsiz müharibənin nəticələri qarşısında ötən müddətdə olduğu kimi, bu gün də bir çox dünya ölkələri, beynəlxalq təşkilatlar, hətta birbaşa bu problemin həlli ilə məsul olan ATƏT-in Minsk qrupu kimi təşkilatlar, onun həmsədrləri səslərini çıxarmır, təcavüzkara "dur!" demirlər. Bu illər ərzində yalnız bölgəyə turist səfərləri edib söz yığınından ibarət bəyanatlar verməklə öz vəzifələrini bitmiş hesab edirlər. Gəncənin bombalanmasına susan "Amnesty International" və "Human Rights Watch" təşkilatlar, nəhayət, Ermənistanın Bərdəyə, istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqləyib. Dünyada insan hüquqlarının müdafiəsi məsələləri ilə bağlı araşdırmalar aparan bu təşkilatların hesabatlarında Ermənistanın müharibə cinayətinin öz əksini tapmasının önəmi nədən ibarətdir? Ölkə prezidenti cənab İlham Əliyev öz çıxışında qeyd etmişdi ki, biz "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsus ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bizim "Nəyə görə buraya gəlmirsiniz?" dediyimizə görə gəlirlər.

Nəticə olaraq, bu təşkilatlar Ermənistanın Azərbaycanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini hesabatlarında təsdiqlədilər. Həqiqətdən qaçmaq olmaz. Bu təşkilatlar həm də Azərbaycan dövlətinin haqlı mövqeyini gördülər. Hesabatda, hətta qeyd olunub ki, kasetli sursatlardan mülki ərazilərə qarşı istifadə etmək amansızlıq və məsuliyyətsizlikdir. Çünki bu, çoxsaylı insan itkisinə, yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının bütün hallarda istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır. Bu faktlar da onu göstərir ki, dünya ictimaiyyəti Ermənistanın müharibə cinayətlərindən xəbərdardır. Sadəcə olaraq, beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər Ermənistan tərəfindən müntəzəm şəkildə törədilən cinayət əməllərinə laqeyd qalmamalı, işğalçı dövlətin silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını, dinc əhalinin qətlə yetirilməsində təqsirkar olan şəxslərin cəzalandırılması ilə bağlı təsirli tədbirlər görülməsini ədalət və insanlıq naminə tələb etməlidirlər.

Yekunu, bu günlərdə Xankəndində bir erməni qadının hərbi əməliyyatlardan bezərək etdiyi müraciətlə bitirmək istəyirəm. Həmin erməni qadın dünya birliyinə müraciət edərək onların zülmünə son qoyulmasına yardımçı olmağa çağırır, beynəlxalq aləmin susqunluğundan qəzəblə danışır. Ay bədbəxt, sənin bu formada müraciətini 30 ildən artıqdır ki, Azərbaycan qadını dünya birliyinə edir. Öz ərazisində qaçqın vəziyyətinə düşdüyünü, Xocalı vəhşiliyi kimi bir dəhşət yaşadığını bəyan etsə də, ədalətsiz dünya susur. Və indi Azərbaycan əsgəri bu tarixi ədaləti bərpa etmək istəyəndə səsiniz çıxır, yalqız və bədbəxt duruma düşdüyünüzdən dəm vurmağa başlayırsınız. Bilin və agah olun ki, haqq nazilər, amma üzülməz. Göz yaşlarınızın qurumasının iki yolu var - ya rədd olub bu torpaqlardan getməlisiniz, ya da bu ölkənin qanunlarını qəbul edib yaşamalısınız.

**Azər NURİYEV**